**“Şəffaflıq Azərbaycan” Korrupsiyaya qarşı Mübarizə İctimai Birliyinin təşkilatçılığı və “Azəriqaz” İstehsalat Birliyinin iştirakı ilə**

**2015-ci il 24 dekabr tarixində**

*“Qaz təchizatı prosesində istehlakçıların hüquqlarının qorunması, şəffaflığın artırılması və mövcud problemlərin həlli yolları”*

**mövzusunda keçirilən**

**Dəyirmi Masanın yekunu və verilən tövsiyələr**

***Ön söz***

*Bu tövsiyələr “Şəffaflıq Azərbaycan” təşkilatı tərəfindən Amerika Birləşmiş Ştatları Beynəlxalq İnkişaf Agentiliyinin (USAID) maliyyə dəstəyi əsasında həyata keçirilən İctimai Maraqların Müdafiəsi və Hüquq Məsləhət Mərkəzi (ALAC) layihəsinin ictimai müzakirələr komponenti çərçivəsində hazırlanmışdır və donorların rəsmi mövqeyini əks etdirməyə bilər.*

“Azəriqaz” İstehsalat Birliyi Azərbaycan Respublikası ərazisində təbii qazın saxlanması, emalı, nəqli, paylanması və satışını həyata keçirir. Həmçinin, “Azəriqaz” İB hazırda ARDNŞ-nin hasil etdiyi təbii qazın İran, Gürcüstan və Rusiyaya çatdırılması ilə də məşğuldur. Tərkibində istehsalat funksiyalarını yerinə yetirən 6 idarə və təşkilatı birləşdirən “Azəriqaz” İB-ni ölkənin müxtəlif regionlarını əhatə edən 1,312 milyona yaxın istehlakçının təbii qazla təchizatını təmin edir. Bu funksiyanın icrası üçün 8 magistral qaz kəmərləri sahəsi, 7 kompressor stansiyası, 67 qaz istismar sahəsi, 79 avtomat qaz paylayıcı stansiya, 77 qaz paylayıcı stansiya, 35 qaz paylayıcı məntəqə, ümumi uzunluğu 44 372 kilometr olan boru kəmərləri və digər çoxsaylı texnoloji obyektlərdən ibarət olan mürəkkəb texniki şəbəkənin optimal idarəetmə mexanizmi mövcuddur. ARDNŞ tərəfindən sahənin yenidən qurulması və istehsalatın müasir tələblər səviyyəsində təşkili istiqamətində həyata keçirilən geniş proqram çərçivəsində “Azəriqaz” İB-nin elmi-texniki potensialının artırılmasına xüsusi önəm verilir və nəzərdə tutulmuş məqsədlərə nail olmaq üçün yeni layihələr üzərində intensiv iş aparılır.

Tədbirin keçirilməsində əsas məqsəd əhali qrupundan olan istehlakçıların qaz təchizatı sahəsində təchizatçı qurumlar və abonentlər tərəfindən yol verilən pozuntuları müzakirə etmək, onların həlli istiqamətində atıla biləcək addımları nəzərdən keçirmək olmuşdur. Vətəndaş cəmiyyəti üzvləri ilə hökumət nümayəndələrinin birgə dialoqunu qurmaq, ictimai müzakirələrin genişləndirilməsinə nail olmaq üçün dəyirmi masanın keçirilməsi məqsədəuyğun hesab edilmişdir. Bununla əlaqədar “Şəffaflıq Azərbaycan” Korrupsiya qarşı Mübarizə İB-nin təşkilatçılığı ilə “Azəriqaz” İstehsalat Birliyinin, müvafiq dövlət orqanlarınının, mətbuat nümayəndələrinin, yerli qeyri-hökumət təşkilatları və beynəlxalq qurumların iştirakı ilə dəyirmi masa təşkil edilmişdir. Yekunda dəyirmi masanın gedişi zamanı aparılan müzakirələr, səsləndirilən fikirlər, irəli sürülən təkliflər ümumiləşdirilərək tövsiyyə halına salınıb və “Azəriqaz” İstehsalat Birliyinə təqdim edilib. Tövsiyələrin hazırlanmasında aşağıdakı şəxslərin fikirlərindən istifadə olunub.

- Ələkbər Ağasıyev, Konstitusiya Araşdırmalar Fondunun eksperti.
- Rəna Səfərəliyeva, “Şəffaflıq Azərbaycan” İB-nin İcraçı Direktoru;
- Azər Talıbov, “Şəffaflıq Azərbaycan” İB-nin Baş Hüquqşünası

| **I. QAZDAN İSTİFADƏ QAYDALARI** | |
|---|---|
| *Mövcud vəziyyət* | *Analiz* |
| Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı ilə təsdiq edilmiş “Qazdan istifadə Qaydaları” (gələcəkdə ”Qaydalar”) “Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hazırlanıb və qaz paylayıcısı ilə istehlakçı arasında qaz təchizatı üzrə münasibətləri (qazın alqı-satqı müqaviləsi əsasında), şəbəkəyə qoşulma və şəbəkədən ayırma şərtlərini, qazın keyfiyyəti (təzyiq və təchizatın etibarlılığı), qazın dəyərinin ödəmə şərtlərini və digər məsələləri tənzimləyir.<br>Qaz paylayıcısı və istehlakçının bu Qaydalara əsasən müəyyənləşdirilən vəzifələri və hüquqları, habelə istehlakçılara verilən qazın keyfiyyəti (təzyiq və təchizatın etibarlılığı), həcmi, dəyərinin ödəmə şərtləri və digər məsələlər qazın alqı-satqı müqaviləsində göstərilir.<br><br>İstehlakçıya tələb olunan qazın həcmi onun istismar edəcəyi qaz qurğularının texniki pasport göstəricilərində maksimal saatlıq qaz sərfinə uyğun olaraq müəyyən edilir.<br><br>İstehlakçıya satılan qazın keyfiyyət göstəriciləri – tərkibi, sıxlığı, rütubətliliyi, istilik yaratmaq qabiliyyəti və digər göstəriciləri qüvvədə olan dövlət standartlarının tələblərinə cavab verməlidir.<br>Bu Qaydaların tələblərinin yerinə yetirilməsinə dövlət nəzarətini öz səlahiyyətləri daxilində qazdan səmərəli istifadə və qaz qurğularının etibarlı istismarı sahəsi üzrə Sənaye və Energetika Nazirliyi və texniki təhlükəsizlik sahəsi üzrə Fövqəladə Hallar Nazirliyi həyata keçirir. | “Açıq Cəmiyyət İnstitutu – Yardım Fondu” tərəfindən maliyyələşdirilən “Kommunal sektorda istehlakçı hüquqlarının qorunmasına yardım göstərilməsi” layihəsi çərçivəsində Korrupsiyaya Qarşı Mübarizə üzrə QHT-lərin Məlumat və Əməkdaşlıq Şəbəkəsi tərəfindən 2010-11-ci illər ərzində həyata kecirilən layihə çərçivəsində “Qaz təchizatı müəssisəsi ilə məişət abonenti (əhali) arasında təbii qazın alqı-satqısının birtipli Müqaviləsi” layihəsi hazırlanmış, yeni müqavilə layihəsi ictimaiyyətə təqdim olunmaqla yanaşı 02 fevral 2011-ci il tarixdə “Azəriqaz” İstehsalat Birliyi və İqtisadi İnkişaf Nazirliyinə, həmçinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilmişdi.<br><br>Şəbəkə tərəfindən təklif olunmuş əlavə və dəyişikliklərin əksər hissəsi (86% -i) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 may 2011-ci il tarixli 80 saylı Qərarı ilə təsdiq edilmiş “Qazdan istifadə Qaydaları”nda öz əksini tapıb və müqavilə şərtlərinə daxil edilib (68%-i). Lakin layihədə bir neçə mühüm əhəmiyyət kəsb edən məsələ ilə əlaqədar təkliflərin də verilməsinə baxmayaraq nə “Qaydalar”da, nə də “Qaydalar”ın 2 №-li Əlavəsi olan “Qaz paylayıcısı ilə fiziki şəxs olan istehlakçı arasında qazın alqı-satqısı barədə Müqavilə”də (gələcəkdə “Müqavilə”) yer almamışdır. Məsələn, sayğac quraşdırılmanın, dəyişdirilmənin, növbəti və növbədənkənar dövlət yoxlamasının keçirilməsininn prosedur qaydaları , sənədləşdrilməsi və s. Ilə əlaqədar boşluqlar qalmışdır. Bu səbəbdən də həm “Qaydalar”, həm də “Müqavilə“ yenə də “İstehlakçı”nın hüquqları “Təchizatçı” nın məsuliyyəti sahəsində qüsurlu qalmışdır, mükəmməl deyil.<br>Lakin istənilən halda əvvəlki illərdə qüvvədə olmuş “Qaydalar “ və “Müqavilə” dən həcm , forma və məzmunca əhəmiyyətli dərəcədə fərqlənən yeni “Qaydalar” rın təsdiq olunması təqdirə layiqdir və istehlakçı hüquqlarının qorunması sahəsində irəliyə atılmış addım kimi qiymətləndirilir. |
| *Mövcud vəziyyət* | *Analiz* |
| “Qazdan istifadə Qaydaları”nın aşağıda göstərilən bəndinə əsasən:<br>1.3. Qaz paylayıcısı tərəfindən istehlakçının qazla təchiz edilməsi qazın alqı-satqı müqaviləsinə əsasən həyata keçirilir. Həmin müqaviləyə qaz paylayıcısı ilə istehlakçı arasında qazpaylayıcı şəbəkənin balans mənsubiyyəti sərhədini müəyyən edən akt (1 nömrəli əlavə) əlavə edilir.<br><br>Qaz paylayıcısı və istehlakçının bu Qaydalara əsasən müəyyənləşdirilən vəzifələri və hüquqları, habelə istehlakçılara verilən qazın keyfiyyəti (təzyiq və təchizatın etibarlığı), həcmi, dəyərinin ödəmə şərtləri və digər məsələlər qazın alqı-satqı müqaviləsində göstərilir.<br>Qazın alqı-satqı müqaviləsi bu Qaydalara əlavə edilmiş formaya uyğun (2 və ya 3 nömrəli əlavələr) bağlanılmalıdır. | Əhali qrupundan olan istehlakçılarla müqavilələrin bağlanması çox aşağı səviyyədədir, balans mənsubiyyəti sərhədini müəyyən edən akt ümumiyyətlə tərtib olunmur. Bəzi hallarda müqavilə bağlanan zaman itirilmiş enerjiyə görə əlavə sərfiyyatın hesablanması üçün qaydalarda nəzərdə tutulmayan və qaz borusunun en kəsik sahəsinə əsaslanan hesabat qaydası da imzalanması üçün istehlakçılara təqdim edilir. Bu hal qeyri - real borcların hesablanmasına şərait yaradır.<br><br>Hüquqi və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin texniki şərt alması üçün rəsmi müraciətdən sonra qaz təchizatının təmin edilməsinə qədər 4-5 ay vaxt keçir.Bürokratik əngəl və rüründüməçilik kimi qiymətləndirilməli olan həmin vaxt itkisi əlaqədar təşkilatlarda lüzumsuz istehlakçı-məmur əlaqələrinə,müxtəlif razışmalara sərf olunur. |

| | |
|---|---|
| Qaydaların aşağıdakı bəndlərinə əsasən:<br>2.1. Yalnız tikintisi və ya yenidən qurulması nəzərdə tutulan, habelə qaz təchizatı sxemi dəyişdirilən qaz qurğularının qazpaylayıcı şəbəkəyə qoşulması üçün qaz paylayıcından texniki şərt alınmalıdır. Texniki şərtin verilməsi qaydası və yaşayış binalarının, o cümlədən mənzillərin qaz xətlərinə qoşulma qaydası müvafiq normativ hüquqi aktlarla müəyyən edilir.<br>2.2. Müvafiq qaydada razılaşdırılmış layihəyə uyğun tikintisi başa çatdırılmış sənaye qaz qurğularının istismara qəbulu və qaz şəbəkəsinə qoşulması tikinti-quraşdırma işlərini aparmış təşkilatın, qaz paylayıcısının, FHN-in və SEN-in səlahiyyətli nümayəndələrindən ibarət işçi və qəbul komissiyaları tərəfindən, məişət qaz qurğularının istismara qəbulu və qaz şəbəkəsinə qoşulması isə qaz paylayıcısı tərəfindən qanunvericiliyə uyğun olaraq həyata keçirilir və aktla rəsmiləşdirilir.<br>2.3. Sənaye qurğuları qəbul komissiyası tərəfindən istismara qəbul olunduqdan və qazpaylayıcı şəbəkəyə qoşulduqdan sonra onların texniki pasport göstəricilərinə uyğun normal və davamlı işinin təmin edilməsi üçün xüsusi razılığı (lisenziyası) olan sazlama təşkilatı tərəfindən buraxılış-sazlama və rejim-sazlama işləri aparılmalıdır. Buraxılış-sazlama və rejim-sazlama işlərinin yekununa dair sazlama təşkilatı tərəfindən müvafiq akt tərtib olunur. | Bu prosesdə xüsusi razılığı(lisenziyası) olan sazlama təşkilatının əməli cəhətdən iştirakı demək olar ki,hiss olunmur,bu məqsədlə həyata keçirilən ödəniş və tərtib olunan müvafiq akt formal xarakter daşıyır. |
| *Mövcud vəziyyət* | *Analiz* |
| 3.1. Qazdan səmərəli istifadə, qaz qurğularının etibarlı və təhlükəsiz istismar edilməsi məqsədi ilə qaz paylayıcısı aşağıdakı vəzifələri yerinə yetirməlidir:<br>3.1.1. qazdan istifadə və texniki təhlükəsizlik üzrə qanunvericiliyin tələblərinə və bu Qaydaların 1.6-cı bəndində göstərilən dövlət nəzarətini həyata keçirən orqanların qanuni göstərişlərinə əməl etməli;<br>3.1.2. istehlakçını qazın alqı-satqı müqaviləsində göstərilən keyfiyyətdə və həcmdə, habelə dövlət standartlarının tələblərinə uyğun qazla təmin etməli;<br>3.1.3. qazpaylayıcı şəbəkəni onun etibarlılığının və təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə təmir-profilaktika işlərini vaxtında yerinə yetirməklə, texniki cəhətdən saz vəziyyətdə saxlamalı;<br>3.1.4. qaz paylayıcısının illik iş planında göstərilən müddətlərdə təmir-profilaktika işlərinin aparılması ilə əlaqədar qazın verilməsinin dayandırılması barədə istehlakçını ən azı 5 (beş) gün əvvəl xəbərdar etməli;<br>3.1.5. istehlakçının qaz qurğusu dövlət standartlarının tələblərinə cavab vermədiyi, paylayıcının istehlakçıya verdiyi qazın sayğacla müəyyənləşdirilən hesabı istehlakçıya təqdim edildikdən (göndərildikdən) sonra bir ay müddətinə tam ödənilmədiyi və paylayıcı ilə müvafiq müqavilə bağlanılmadığı hallarda qazın verilməsinin dayandırılacağı barədə istehlakçıya yazılı bildiriş | Qaz paylayıcısının göstərilən 7 vəzifəsindən yalnız biri (3.1.2-ci bəndi) təchizatçının istehlakçı qarşısında daşıdığı vəzifədən bəhs edir. Digər vəzifələr isə daha çox qabaqlayıcı-xəbərdaredici xarakter daşıyır.<br><br>Bununla belə göstərilən vəzifələrin təchizatçı qurumlar tərəfindən icrası qənaətbəxş deyil. Əsasən regionlarda , bəzi hallarda isə hətta Bakı şəhəri ərazisində də istehlakçılar lazimi keyfiyyətli və həcimli qazla təmin edilmir, qaz verilməsinin dayandırılması barədə rəsmi xəbərdarlıqlar verilmir, abonentlərin qaz qurğularına texniki baxış keçirilməsi və aktlaşdırılması yox səviyyəsindədir və s. |

<table>
<tr><td>göndərməli;<br>3.1.6. bu Qaydalarıen 3.2.7-ci və 3.2.9-cu yarımbəndlərində nəzərdə tutulmuş hallarda məlumat daxil olduqda, dərhal zəruri tədbirlər görməli, 3.2.10-cu yarımbəndində nəzərdə tutulmuş halda məlumat daxil olduqda isə istehlakçının qaz qurğularını dəmir örtüklü qapaqla və ya tıxacla xətdən ayırmalı;<br>3.1.7. qaz qurğularına altı ayda bir dəfədən az olmayaraq texniki baxış keçirilməsini təmin etməli, nəticələrini 2 nüsxədən ibarət aktla rəsmiləşdirməli və aktın bir nüsxəsini mütləq istehlakçıya təqdim etməli. İstehlakçı bu barədə xüsusi kitabda öz imzası ilə həmin sənədin alınmasını təsdiq etməlidir.</td><td></td></tr>
<tr><td colspan="2">Tövsiyə edirik ki,<br>İnzibati cəza tədbirləri vasitəsi ilə əməkdaşların vəzifə və müqavilə öhdəliklərini yerinə yetirməsinə nəzarət gücləndirilsin.</td></tr>
<tr><td>3.2. Qazdan istifadə edən istehlakçılar aşagdakı vəzifələri yeriə yetirməlidirlər:<br><br>3.2.3. yalnız xüsusi razılığı (lisenziyası) olan təşkilatla və ya qaz paylayıcısı ilə bağlanılmış müqavilə əsasında yaşayış sahəsində qaz qurğularının təmirini və onlara texniki xidmət göstərilməsini həyata keçirməli;<br>3.2.4. qaz qurğularının, tüstü bacalarının, havalandırma və havadəyişmə xətlərinin normal işləməsini diqqətdə saxlamalı, qaz qurğusu işə salındıqdan dərhal sonra və onun istismarı zamanı qazın yanma məhsullarının tüstü bacalarına ötürülməsi ilə havanın sorulmasını yoxlamalı;</td><td>Əvvəla , xüsusi razılığı (lisenziyası) olan təşkilatların adı, ünvanı, görə biləcəyi işlər, görülməli işlərin ödənişli olub - olmaması və s. haqqında abonentlərdə demək olar ki, məlumat yoxdur.<br><br>Digər tərəfdən, bu sahədə xüsusi biliyi olmayan abonentlərdən qaz qurğularının ,tüstü bacalarının və ventilyasiya xətlərinin yoxlanılmasını və saz vəziyyətdə saxlanılmasını tələb etmək nə reallığa , nə də məntiqə uyğundur.<br><br>SSRİ dövründə hər iki aydan bir təchizatçı qurumun əməkdaşlaır tərəfindən bütüb abonentlərin qaz qurğuları yoxlanılırdı, ödənişsiz olaraq lazimi sazlama və cari təmir işləri həyata keçirilirdi , il ərzində azı bir dəfə isitmə mövsümunan əvvəl hündür mərtəbəli yaşayış bimaları daxil olmaqla bütüb tüstü bacaları və ventilyasiya xətləri ödənişsiz olaraq yoxlanılırdı,təmizlənirdi və bu baradə müştərək akt tərtib olunaraq yerli QİÍ-nə təqdim oluurdu.<br><br>SSRİ – nin parçalanmasından sonra təchizatçı qurumlar xidmətin ilk növbədə təhlükəsizliyini təmin etmək məsuliyyətindən yayınaraq istehlakıçıları yarana biləcək problmlərlə təkbətək qoydular</td></tr>
<tr><td colspan="2">Tövsiyə edirik ki,<br>İstehlakçıların maarifləndirilməsi üçün “Azəriqaz” İB tərəfindən xüsusi razılığı (lisenziası) olan təşkilatlar barədə (ünvanı, telefonu, görə biləcəyi içlər və s.) bukletlər hazırlanaraq abonentlərə və bu sahədə fəaliyyət göstərən QHT-na paylansın.</td></tr>
</table>

| | |
|---|---|
| 4.2. Qaz sayğacı ilə təchiz edilmə, onun quraşdırılması və dəyişdirilməsi fiziki şəxs olan istehlakçıya münasibətdə qaz paylayıcısı hesabına, hüquqi şəxs olan istehlakçıya münasibətdə isə öz vəsaiti hesabına həyata keçirilir.<br>4.7.Sayğacların üzərində olan plomblar kənar müdaxilələrdən qorunmaq üçün müvafiq örtüklə örtülməli (fiziki şəxs olan istehlakçıların sayğacları qaz paylayıcısı tərəfindən) və sayğac göstəricisinə sərbəst şəkildə baxılmasına imkan olmalıdır.<br>4.8. Fiziki şəxs olan istehlakçıların qaz sayğaclarının işlək vəziyyətdə saxlanılmasına görə cavabdehliyi qaz paylayıcısı, hüquqi şəxslərin qaz sayğaclarının işlək vəziyyətdə saxlanılmasına görə cavabdehliyi isə özləri daşıyırlar.<br>4.9. Zədələnmiş qaz sayğacının (hesablama mexanizmlərinin sıradan çıxması, baxış pəncərəsinin sınması, qoruyucu plombların qırılması, texniki nasazlıqlar və s.) təmir olunması, həmin sayğacın dövlət yoxlanmasından keçirilməsi, dəyişdirilməsi və quraşdırılması müraciət edildiyi gündən başlayaraq 15 iş günündən gec olmayaraq bu Qaydaların 4.2-ci bəndinə uyğun olaraq qaz paylayıcısı tərəfindən həyata keçirilir.<br>5.2. Qaz paylayıcısı istehlakçıya verdiyi qazın dəyərini yalnız qaz sayğacının göstəricilərinə əsasən tam hesablamalıdır və hər ay istehlakçıya hesab təqdim etməlidir (göndərməlidir). "Smart-kart" tipli qaz sayğacı olan istehlakçıya istifadə etdiyi qazın dəyəri haqqında hesabın qaz paylayıcısı tərəfindən istehlakçıya təqdim edilməsi (göndərilməsi) tələb edilmir. İstehlakçı tərəfindən qazın hesabı tam ödənildikdən sonra, qaz paylayıcısı tərəfindən yol verilmiş səhvə görə düzgün hesablanmamış qazın dəyərinin qaz paylayıcısı istehlakçı tərəfindən ödənilməsini tələb edə bilməz.<br>5.3. İstifadə olunan qazın dəyəri yalnız bank və ya poçt şöbələri vasitəsilə ödənilir.<br>“Qaydalar”-ın 6.1-ci bəndində qaz təchizatının dayandırılmasının altı halı, o cümlədən məhkəmə qərarına əsasən dayandırılması halı nəzərdə tutulub.<br>6.6. Qazın verilməsinin dayandırılmasına səbəb olmuş hallar aradan qaldırıldıqdan və müvafiq qaydada rəsmiləşdirildikdən sonra 1 (bir) iş günü müddətində qaz paylayıcısı tərəfindən qazın verilməsi bərpa edilməlidir.<br><br>6.7. Qazın verilməsinin dayandırılması və bərpa edilməsi hər bir halda (bu Qaydaların 6.1.2-ci yarımbəndi istisna olunmaqla) qaz paylayıcısı tərəfindən istehlakçının iştirakı ilə aktla rəsmiləşdirilməli və aktın bir nüsxəsi istehlakçıya təqdim edilməlidir. | Göründüyü kimi əhali qrupundan olan istehlakçılar üçün sayğacların quraşdırılması, dəyişdirilməsi,kənar müdaxilərdən qorunması üçün qoruyucu örtüklə təchiz edilməsi ödənişsiz olaraq qaz paylayıcı tərəfindən yerinə tetirməlidir.Həmçinin sayğac üzərində olan plombaların qorunmasına və onların işlək vəziyyətdə saxlanmasına görə cavabdehliyi qazpaylayıcı daşıyır.<br><br>Lakin bir çox hallarda sayğac quraşdırılsrkən və ya dəyişilərkən örtüklə təchiz olunmur,istehlakçının nəzarətindən kənarda(hasarı küçə tərəfində,pilləkən meydançasında)quraşdırılmış sayğacların plombalarının qırılmasına görə istehlaçılars qarşı şər və böhtan xarakterli həqiqətə uyğun olmayan aktlar tərtib olunur,itirilmiş enerji miqdarına görə qeyri-qanuni əlavə borc hesablanır,onlara maddi və mənəvi zərər vurulur.<br><br>Göründüyü kimi enerji miqdarına görə borcun hesabatı yalnız real sayğac göstəricilərinə əsaslanmalıdır.Lakin bir çox hallarda təchizatçı qurumlar tərəfindən istehlakçının təqsirli hərəkəti olmadığı hallarda qərəzli tərtib olunmuş pozuntu aktlarına görə yaşayış sahəsində istifadə olunan qaz cihazlarının maksimal saatlıq qaz sərfiyatına əsasən əlavə borclar hesablanır.<br><br>Onu da qeyd etmək lazımdır ki,əvvəlki illərlə müqasiyədə nisbi azalma müşahidə olunsa da enerji haqqlarının mənzillərdə yığılması hallları hələ də mövcuddur.<br><br>**B**ir çox hallarda , xüsusən son 2 -3 il ərzində təchizizatçı idarələr səlahiyyətlərindən sui-istifadə edərək qeyri - qanuni hesablanmış borcların ödənilməsini təmin etmək üçün rəsmi bildiriş təqdim etmədən qaz verilməsinin dayandırılmasından (həmçinin yükləmə kartının dondurulması) şantaj məqsədi ilə istifadə edir |

**Tövsiyə edirik ki,**

1. Sayğaca və itirilmiş enerjiyə görə hesablanmış borc məhkəmə qaydasında silindiyi hallarda aktın tərtibatında iştirak etmiş vəzifəli şəxslər uyğun fəaliyyətlə məşğul olmaq hüququndan məhrum edilərək işdən azad edilsin ;
2. Qaz sayğaclarının quraşdırılması və dəyişdirilməsi Qaydalarına qoruyucu örtüyün quraşdırılması barədə xüsusi bənd əlavə olunsun;
3. Nəzarətçilərin vəzifə öhdəliklərini tənzimləyən təlimata mənzillərdə enerji dəyərinin yiğilmasını qadağan edən bənd əlavə olunsun;
4. Nəzarətçilər bildirişlərin verilməsi üçün indeksorlarla təmin edilsin.

**I. 1. “Qazdan istifadə Qaydaları”na 2 №-li Əlavə**
**Qaz paylayıcısı ilə fiziki şəxs olan istehlakçı arasında qazın alqı-satqısı barədə**
**M Ü Q A V İ L Ə**

| *Mövcud vəziyyət* | *Analiz* |
|---|---|
| 2.1.1. İstehlakçını (qazın təzyiqinin göstəricisi) təzyiqdən aşağı olmamaqla, keyfiyyət göstəriciləri dövlət standartlarının tələblərinə (DÜST-5542-87) uyğun olan qazla fasiləsiz və etibarlı şəkildə təmin etmək;<br>2.1.2. İstehlakçını ildə bir dəfədən az olmayaraq (qaz qurğularının istismara verilmə və ya son texniki baxış tarixindən etibarən) “Qazdan istifadə Qaydaları”nın tələblərinə uyğun olaraq təlimatlandırmaq;<br>2.1.3. İstehlakçının istismarda olan qaz qurğularına altı ayda bir dəfədən az olmayaraq, texniki baxış keçirilməsini təmin etmək və nəticələrini 2 (iki) nüsxədən ibarət aktla rəsmiləşdirmək və aktın bir nüsxəsini mütləq İstehlakçıya təqdim etmək;<br><br>2.1.4. Paylayıcının illik iş planında göstərilən müddətlərdə təmir-profilaktika işlərinin aparılması ilə əlaqədar qazın verilməsinin dayandırılması barədə istehlakçını ən azı 5 (beş) gün əvvəl xəbərdar etmək;<br>2.1.6. qazın verilməsində təzyiqin azalması barədə (qəza işləri, baş vermiş yanğının və qaz sızması halları istisna olmaqla) İstehlakçını ən azı 5 (beş) gün əvvəl xəbərdar etmək;<br><br>2.1.5. İstehlakçıya verilən qazın həcminin və dəyərinin, həmçinin istismarda olan qaz qurğularının tam və dəqiq uçotunu aparmaq;<br>2.1.7. İstehlakçıya verdiyi qazın dəyərini yalnız sayğacın göstəricilərinə əsasən tam hesablamaq və hər ay istehlakçıya hesab təqdim etmək (göndərmək);<br>2.1.8. İstehlakçının tələbi ilə ona istifadə edilmiş qazın həcmi və dəyəri barədə yazılı məlumat vermək;<br>3.4. Hesab İstehlakçıya Paylayıcı tərəfindən təqdim edildikdən (göndərildikdən) sonra bir ay müddətində İstehlakçı tərəfindən bank və ya poçt şöbələri vasitəsilə tam ödənilməlidir.<br><br>2.1.10. İstehlakçının qaz sayğacını, onun texniki pasportunda göstərilmiş müddətdə ödənişsiz qaydada növbəti dövlət yoxlanılmasından keçirmək;<br>2.1.11. ödənişsiz qaydada İstehlakçının zədələnmiş qaz sayğacını təmir etmək və dövlət | ➢ Əvvəla, istehlakçılara verilən qazın təzyiqində kəskin sıçrayışların baş verməsi halları mövcuddur, qazın keyfiyyət göstəricilərinə təchizatçı tərəfindən tam əməl olunmur. (məsələn, 2014-cü ilin mart ayında Bakı şəhəri Qaradağ rayonu ərazisində insan tələfatı ilə nəticələnən kütləvi zəhərlənmə hadisəsi).<br>➢ İstehlakçıların təlimatlandırılması tələbinə demək olar ki, ümumiyyətlə əməl olunmur, onları təlimatladırmalı sıravi nəzarətçilərin bu sahədə biliyi aşağı səviyyədədir.<br>➢ İstehlakçıların istismarda olan qaz qurğularına müvafiq qaydada sənədləşdirilərək texniki baxış keçirilməsi faktına rast gəlinmir.<br>➢ Yalnız iri həcmli təmir- profilaktika işləri görülməzdən əvvəl kütləvi informasiya vasitələrində qaz təchizatında baş verəcək fasilələr barədə məlumat verilir. Lakin ayrı-ayrı küçələrdə , qəsəbələrdə və digər kiçik yaşayış massivlərində aparılan təmir –profilaktika işləri zamanı bu barədə istehlakçılara xəbərdarlıq olunmur ( məsələn, 03.04.2014 –cü il tarixdə Binəqədi qəsəbəsində heç bir xəbərdarlıq olunmadan qaz təchizatında saat 10:00 –dan 15:30-a qədər yaranmış fasilə, 2015-ci il noyabr ayının əvvəllərində B.Səfəroğlu , A.Şaiq, Ç.Mustafayev və s. küçələrdə yaşayan abonentlərin 4 gün ərzində qazsız qalması) .<br>➢ Əvvəlki illərdə olduğu kimi hal-hazırda da bəzi istehlakçıların faktik sayğac göstəriciləri qeyri-qanuni olaraq artırılaraq komputer qeydiyyatına alınır, bu səbəbdən də əsassız borc hesablanır.<br>➢ Əvvəlki dövrlə müqayisədə müəyyən müsbət irəliləyiş olmasına baxmayaraq hələ də bəzi istehlakçılara hər ay borc bildirişləri təqdim edilmir.<br>➢ Bəzi nəzarətçilərin və poçt şöbələrinin maddi- məsul şəxslərinin vəzifə səlahiyyətlərindən sui-istifadə etməsi səbəbindən qaz enerjisinin dəyəri nəzarətçilər tərəfindən poçt qəbzlərinə əsasən mənzillərdə yığılır. Bu hal müxtəlif qanun pozuntularına, o cümlədən, yığılmış maddi vəsaitin tam və ya qismən mənimsənilməsinə səbəb olur.<br>➢ İstənilən səbəbdən qaz sayğacının laboratoriya şəraitində dövlət yoxlanılmasından keçirilməsi zərurəti yarandıqda istehlakçının iştirakı təmin edilmir, bəzi hallarda bununla əlaqədar istehlakçı üçün əlavə borc hesablanır.<br>➢ Mənzildən kənarda quraşdırılmış və hər hansı səbəbdən istismara yararsız kimi qiymətləndirilmiş qaz sayğacının dəyişdirilməsi , həmçinin əhali qrupundan olan |

| | |
|---|---|
| yoxlanılmasından keçirmək, habelə həmin qaz sayğacını təmir etmək mümkün olmadıqda dəyişdirmək və quraşdırmaq;<br><br>2.1.12. İstehlakçının qaz qurğusu dövlət standartlarının tələblərinə cavab vermədiyi, Paylayıcının İstehlakçıya verdiyi qazın sayğacla müəyyənləşdirilən hesabı İstehlakçıya təqdim edildikdən (göndərildikdən) sonra bir ay müddətinə tam ödənilmədiyi və Paylayıcı ilə müvafiq müqavilə bağlanmadığı hallarda qazın verilməsinin dayandırılacağı barədə İstehlakçıya yazılı bildiriş göndərmək;<br>2.1.13. qəza işləri görüldüyü, o cümlədən baş verən yanğının və ya qaz sızmasının qarşısı alındığı hallar istisna olmaqla, qazlaşdırılmış ərazidə və (və ya) yaşayış sahəsində olan qaz qurğusuna texniki baxış keçiriləcəyi barədə İstehlakçıya 3 (üç) gün əvvəl rəsmi bildiriş göndərmək;<br>2.1.14. bu Müqavilə üzrə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsinə görə qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyəti daşımaq;<br>2.1.15. "Qazdan istifadə Qaydaları"nda nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək. | istehlakçılar üçün G-6 tipli və daha böyük sayğacların quraşdırılması üçün qeyri-qanuni olaraq sayğacın dəyərinin ödənilməsi tələb olunur. Rəsmi müraciətlər müsbət nəticə vermədiyindən məhkəmə zərurəti yaranır,bu da şikayətində haqlı olan istehlakçılar üçün maddi və mənəvi zərarə səbəb olur.Yalnız 2015-ci ilin ikinci yarısında bizim hüquqi yardımımızla həyata keçirilən üç məhkəmə prosesində sayğaca və itirilmiş enerjiya görə tələb olunan ümumullikdə **5200 manat** silinmişdir.<br>➢ Nə debitor borcun ödənilməməsilə əlaqədar qaz təchizatının dayandırılacağı, nə də qaz qurğularına texniki baxış keçiriləcəyi barədə istehlakçılara rəsmi bildirişlər təqdim olunmur.<br>➢ Paylayıcı qaz təchizatının fasiləsiz, təhlükəsiz və keyfiyyət göstəricilərinə görə cavabdehlik daşıdığı halda bir çox hallarda məsuliyyətdən yayınır, insan xəsarətləri ilə nəticələnən qəza hadisələri baş verdikdə əksər hallarda istehlakçı təqsirləndirilir. |
| 2.2.6.5. Paylayıcı ilə müvafiq müqavilə bağlanmadıqda Paylayıcının İstehlakçıya qazın verilməsini dayandırmaq hüququ var. | Müqavilənin bu bəndi ümumiyyətlə İstehlakçını Paylayıcı ilə müqavilə bağlamağa məcbur etməyə yönəlib və müqavilə azadlığı ilə əlaqədar Mülki Məcəllənin müvafiq maddələri ilə ziddiyyət təşkil edir. Belə anlaşılır ki, müqavilə şərtlərinin İstehlakçını qane edib-etməməsindən asılı olmayaraq o, müqavilə bağlamağa məhkumdur, əks halda ona qazın verilməsi dayandırıla bilər. |
| 2.4. İstehlakçının hüquqları:<br>2.4.1. bu Müqavilə ilə müəyyən edilmiş təzyiqdə, habelə dövlət standartlarına uyğun keyfiyyətdə fasiləsiz və etibarlı şəkildə qazla təmin edilməsini Paylayıcıdan tələb etmək;<br>2.4.2. Paylayıcı tərəfindən bu Müqavilənin, "Qazdan istifadə Qaydaları"nın tələblərinin pozulduğu hallarda, həmin halların aradan qaldırılmasını ondan tələb etmək;<br>2.4.3. qazın verilməsinin dayandırılmasına səbəb olmuş hallar aradan qaldırıldıqdan və müvafiq qaydada rəsmiləşdirildikdən sonra bir iş günü müddətində qazın verilməsinin bərpa edilməsini Paylayıcıdan tələb etmək;<br>2.4.4. qazlaşdırılmış ərazidə və (və ya) yaşayış sahəsində olan qaz qurğusuna texniki baxış keçirmək üçün Paylayıcıdan, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin və Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin səlahiyyətli nümayəndələrindən tapşırıq sənədinin surətini tələb etmək;<br>2.4.5. qaz qurğularına altı ayda bir dəfədən az olmayaraq, texniki baxış keçirilməsini Paylayıcıdan tələb etmək;<br>2.4.6. Paylayıcının təqsirli hərəkətləri | Sayğacın normal işinə müdaxilə ehtimalı olduğu halda onun laboratoriya şəraitində İstehlakçının iştirakı ilə ekspertizadan keçirilməsi tarixinə qədər saxlanılması üçün İstehlakçıya təhvil verilməsi haqqında nə Qaydalarda, nə də müqavilədə istehlakçının hüquqları sırasında heç bir müddəa yoxdur. Belə bir müddəanın olmaması nəzarətçilər tərəfindən edilən sui-istifadə halları üçün yol açır. Belə ki, şübhəli sayğac demontaj edilərək ekspertizaya aparılarkən ona nəzarətçilər tərəfindən mexaniki müdaxilə edilir və sonra buna əsasən itirilmiş enerjiyə və sayğaca görə istehlakçı üçün əlavə borc hesablanır.<br><br>Qaz təchizatının bərpa edilməsi bəzi hallarda üç-dörd gün vaxt aparır. İstehlakçının qaz qurğularına texniki baxış ümumiyyətlə keçirilmir, bununla əlaqədar tapşırıq sənədi təqdim edilmir.<br><br>Paylayıcının təqsirli hərəkətləri ( hərəkətsizliyi ) səbəbindən istehlakçıya dəymiş zərərin əvəzi çox nadir hallarda tam şəkildə olmayaraq qismən ödənilir. |

| | |
|---|---|
| (hərəkətsizliyi), habelə bu Müqavilə üzrə müəyyən edilmiş vəzifələrin lazımınca icra edilməməsi nəticəsində dəymiş zərərin əvəzinin ödənilməsini Paylayıcıdan tələb etmək;<br>2.4.7. bu Müqavilənin şərtlərindən irəli gələn və qazdan istifadəni tənzimləyən normativ hüquqi aktlarda nəzərdə tutulmuş hüquqları həyata keçirmək. | |
| 3. Qazın qiyməti və dəyərinin ödənilməsi şərtləri<br>3.3. Paylayıcı İstehlakçıya verdiyi qazın dəyərini yalnız sayğacın göstəricilərinə əsasən tam hesablamalıdır və hər ay İstehlakçıya məlumat (hesab) təqdim etməlidir (göndərməlidir). "Smart-kart" tipli qaz sayğacı olan İstehlakçıya istifadə etdiyi qazın dəyəri haqqında hesabın Paylayıcı tərəfindən İstehlakçıya təqdim edilməsi (göndərilməsi) tələb olunmur.<br>3.5. İstehlakçı tərəfindən qazın hesabı tam ödənildikdən sonra, Paylayıcı tərəfindən yol verilmiş səhvə görə düzgün hesablanmamış qazın dəyərinin Paylayıcı İstehlakçı tərəfindən ödənilməsini tələb edə bilməz.<br>3.6. İstehlakçıya verilən qazın dəyəri barədə mübahisəli hallara qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılır və həll edilir. | Mexaniki sayğac quraşdırılmış istehlakçılar üçün borcun hesabatı bəzi hallarda real sayğac göstəricilərinin artırılaraq qeydiyyata alınması ilə aparılır. 1550 kub metr artıq sayğac göstəricisinin qeydiyyata alındığı faktı mövcuddur. Analoji hallarda qeyri-qanuni hesablanmış borcun silinməsi istehlakçı üçün ciddi problemlər yaradır.<br>Maliyyə xarakterli mübahisələrin əksər hissəsinin paylayıcının təqsiri ucbatından baş verdiyi etiraf olunmadığından istehlakçı məhkəməyə müraciət etməyə məcbur olur. Bu da istehlakçı üçün əlavə maddi və mənəvi zərərə səbəb olur.<br><br>Məsələn, magistral qaz xəttinin ona məxsus yaşayış sahəsinin eyvanından kənara çıxarılması üçün istehlakçıdan 449 ( dörd yüz qırx doqquz ) manat vəsait alındığı halda məhkəmə tərəfindən təyin edilmiş ekspertiza rəyinə əsasən görülən işin dəyəri istifadə edilmiş materiallar da nəzərə alınmaqla cəmi 113 (yüz on üç ) manat təşkil edir. Artıq alınmış maddi vəsaitin qaytarılması, məhkəmə və ekspertiza xərclərinin paylayıcı tərəfindən ödənilməsi barədə Xətai rayon Məhkəməsi qətnamə qəbul etmişdir.<br><br>İstehlakçılarla bağlanan çoxsaylı müqavilələrin araşdırılması göstəriri ki., "Azəriqaz" İB vəzifə səlahiyyətlərini aşaraq "Müqavilə" nin 3.3-cü bəndinə "**İstehlakçılar tərəfindən təbii qazdan istifadə qaydalarının pozulması hallarında qanunsuz istifadə olunmuş qazın dəyərinin bərpasının hesablanması bu müqaviləyə əlavə edilmiş ARDNŞ-nın Şurasının 14 mart 2011-ci il tarixli 11 nömrəl qərarı ilə təstq edilmiş qaydalara uyğun olaraq tənzimlənir"** məzmunlu cümlə əlavə etmişdir ki, bu da istehlakçı hüquqlarının birbaşa pozulması kimi qiymətləndirilməlidir.<br>Paylayıcı tərəfindən yol verilmiş açıq-aşkar pozuntuların etiraf edilməməsi istehlakçıların hüquqlarının birbaşa pozulması ilə yanaşı , həm də məhkəmələrin artıq yüklənməsinə səbəb olur. |
| **Tövsiyə edirik ki,**<br>**1**. Vəzifəli şəxslər tərəfindən müqavilə öhdəliklərinə əməl olunmasına inzibati nəzarət gücləndirilsin;<br>2. Müqavilə öhdəliklərin davamlı olaraq yerinə yetirməyən əməkdaşlar vəzifələrindən azad edilsin;<br>3. "Müqavilə" nin 3.3 –cü bəndinə qeyri-qanuni əlavə olunmuş cümlə çıxarılsın. | |

| | |
|---|---|
| 5. Xüsusi müddəalar və mübahisələrin həlli qaydası<br>5.1. Tərəflər arasında yaranmış və bu Müqavilədə nəzərdə tutulmayan mübahisəli hallar üzrə münasibətlər, “Qazdan istifadə Qaydaları”na və digər normativ hüquqi aktlara əsasən tənzimlənir.<br>5.2. Bu Müqavilə üzrə yaranan mübahisələr qarşılıqlı anlaşma yolu ilə həllini tapmadıqda, tərəflər məhkəməyə müraciət edə bilərlər.<br><br>**“İstehlakçıların hüquqlarının müdafiəsi haqqında”** Azərbaycan Respublikasının Qanununun 8-ci maddəsinə əsasən təchizatçı qurumlar öz təsərrüfat fəaliyətini elə qurmalıdırlar ki,istehlakçını lazımi səviyyədə və fasiləsiz xidmətlə təmin edə bilsin. | “Qazdan istifadə Qaydaları”nın həmin fəsli yalnız iki hissədən ibarətdir. Aydın deyil ki, tərəflər arasında yaranmış və Müqavilədə nəzərdə tutulmayan mübahisəli hallar üzrə münasibətlər “Qazdan istifadə Qaydaları”na və digər normativ hüquqi aktlara əsasən necə tənzimlənəcək, çünki “Qazdan istifadə Qaydaları”nda mübahisəli hallar üzrə münasibətlərin tənzimlənmə mexanizmi yer almamışdır. Habelə, burada hansı “digər normativ hüquqi aktlar”dan söhbət getdiyi məlum deyil.<br><br>Bundan başqa, aydın deyil ki, Müqavilə üzrə yaranan mübahisələr hansı şəkildə “qarşılıqlı anlaşma yolu ilə” həllini tapa bilər, qaz paylayıcısının hansı məmuru, hansı instansiyası istehlakçı ilə “qarşılıqlı anlaşma yolu ilə” Müqavilə üzrə yaranan mübahisələri həll edəcək. Belə təsəvvür yaranır ki, həmin fəsil çox ümumi şəkildə yazılmış, mübahisələrin həll mexanizmi müfəssəl göstərilməmişdir.<br>Həmçinin, burada Təchizatçının təqsirindən İstehlakçıya ziyan dəydiyi zaman Təchizatçının Mülki Məcəlləsinə uyğun olaraq İstehlakçı qarşısında maddi məsuliyyət daşıması, Təchizatçının dəymiş ziyan haqqında İstehlakçıdan daxil olmuş müraciətə 10 gündən gec olmayaraq baxması və qanunvericiliyə uyğun olaraq İstehlakçıya ziyan ödəməsi kimi təkliflər qəbul edilməmişdir.<br>Habelə,<br>➢ Təchizatçının balans mənsubiyyəti sərhədində qaz enerjisinin və xidmətin keyfiyyət göstəricilərini qüvvədə olan standartların tələblərinə uyğun saxlamağa borclu olması,<br>➢ Təchizatçı və İstehlakçının balans mənsubiyyəti sərhədində qaz enerjisinin və xidmətin keyfiyyətinə daimi, vaxtaşırı (ildə 4 dəfə) və ya epizodik nəzarət etməyə borclu olmaları, qaz enerjisinin keyfiyyət göstəriciləri ilə əlaqədar mübahisələrin həllində müstəqil ekspertizanın və ya ikitərəfli ekspertizanın rəyinin əsas götürülməsi,<br>➢ Xüsusi hallar (baş verə biləcək qəzanın qarşısının alınması, qəzaların nəticələrinin ləğv olunması, təbii fəlakət və s.) istisna olmaqla, məhkəmə qərarı olmadan İstehlakçının qaz təchizatının dayandırılmasının yolverilməzliyi,<br>➢ Borcun hesabatı və ödənişlə əlaqədar sənədlərin İstehlakçının ilkin şifahi tələbi ilə təqdim edilməsi,<br>➢ Qüsur aktlarının tərtib olunması prosedurunu əks etdirən təkliflər nəzərə alınmamışdır.<br>➢ Xidmətin fasiləzizliyinə təsir göstərən amillərdən biri də müxtəlif səbəblərdən SMART-kart tipli sayğacların avtomatik kilidlənməsidir(koda düşməsi).Bir neçə ay bundan əvvəl yüklənmə kartından istifadə etməklə sayğacın aktivləşdirilməsi üçün proqram təminatının hazırlanması müsbət hal kimi qiymətləndirilməlidir.Bir neçə qəzetdə bu barədə məlumat verilsə də, istehlakçıların bu sahədə maariflənmə səviyyəsi qənaətbəxş deyil. |

| **Tövsiyyə edirik, ki**<br>1. Qazpaylayıcının əməkdaşlarının səhvi ucbatından qeyri-qanuni hesablanmış borcaların araşdırılması və silinməsi proseduru sadələşdirilərək sürətləşdrilsin;<br>2. İstehlakçının təqsiri sübut olunmadığı və iştirakı təmin edilməməsi ilə tərtib olunmuş aktlar etibarlı sayılmasın ;<br>3 Məhkəmə zərurəti yaranmaması uçün Abonent Etirazları üzrə Komisiyanın səlahiyyətləri artırılsın.<br>4.Kilidlənmiş sayğacların aktivləşdirmə mexanizmi barədə bukletlər çap olunaraq istehlakçılara və bu sahədə fəaliyyət göstərən QHT-lərə paylanılsın. | |
|---|---|
| **II. KONKRET HÜQUQPOZUNTULARI** | |
| **II. 1. "Azəriqaz" İB-nin işçiləri tərəfindən yol verilən pozuntular** | |
| Mövcud vəziyyət | Analiz |
| Dövlət Statistika Komitəsinin məlumatına görə, hər il dəm qazından zəhərlənmə, boğulma, qaz partlayışından ölən və yaralananların sayı birinci yerdə dayanır.<br>Maraqlıdır ki, insanların dəm qazından hansı şəraitdə zəhərlənməsinə müvafiq qurumlar tərəfindən indiyə qədər aydınlıq gətirilməyib. Rəsmilər yalnız onu deyirlər ki, buna səbəb əhalinin qeyri-standart qızdırıcılardan istifadə etməsi və məsələyə məsuliyyətsiz yanaşmasıdır. | Mənzillərə verilən təbii qazın 4,5 % həcmində bir qapalı yerə yığılması partlayış üçün kifayət edir. Bu halda təsadüfi qığılcım böyük partlayışa səbəb ola bilər. Əhali üçün vacib olan digər məsələ müxtəlif qaz cihazlarının quraşdırılması ilə əlaqədar qoyulan tələblər barədə məlumatlandırılmasıdır. Cihazın quraşdırıldığı məkanın həcmi, hündürlüyü otaqda təbii işıq mənbəyinin olması, ventilyasiya kanallarının yaxşı işləməsi və s. kimi amillər nəzərə alınmalı və mütəmadi yoxlanılmalıdır. Natamam yanma nəticəsində karbon dioksid əvəzinə karbon monooksid (dəm qazı) ayrılır. Dəm qazının mənzilə yığılması nəticəsində isə insanın ağciyəri və sinir sistemi tədricən zəhərlənərək bihuşolmaya, ölümə gətirib çıxarır.<br>Kimyəvi adı metan olan CH4 qazı iysiz, dadsız və rəngsiz olur. Təbii qazın nəqli zamanı onun tərkibinə yay və qış mövsümləri nəzərə alınmaqla cüzi miqdarda odarant əlavə olunur. Məlumatlara görə, dəm qazından boğulma təhlükəsinin artması emal prosesinin düzgün aparılmaması ilə də bağlı ola bilər. Təbii qazın nəqli zamanı onun tərkibinə qatılan xüsusi maddə normadan artıq olduğu üçün o, öldürücü təsirə malik olur. |
| Mənzili isitmək üçün istifadə olunan xarici ölkələrdən idxal edilmiş qaz sobalarının üzərində tələb olunan qaz təzyiqi 180-200 mm civə sütunu göstərilir. Lakin paylayıcı şəbəkədə olan qazın təzyiqi xüsusən qış mövsümündə yetərli olmadığından həmin qızdırıcının normal işləməsi mümkün olmur. Vətəndaşlar da həmin qızdırıcıya müdaxilə edib, cihazların avtomatik iş rejimini pozur, onun qaz gələn deşiyini iynə ilə böyüdürlər. Nəticədə düzgün işləməyən qızdırıcılar evə dəm qazı buraxır, insan xəsarətlərinə və tələfata səbəb olur. Sonra da bildirilir ki, İran və ya Çin sobaları standartlara cavab vermir. | Qızdırıcını işlək vəziyyəti üçün tələb olunan təzyiqlə şəbəkədə olan qazın təzyiqi arasında uzlaşma olmalıdır. Buna görə paylayıcının yay və qış mövsümlərində rejimin gözlənilməsinə cavabdeh olan vəzifəli şəxslərin məsuliyyəti artırılmalıdır. |
| "Azəriqaz" İstehsalat Birliyindən KİV-ə verilən məlumata görə, smart-kart tipli sayğaclar ilk dəfə Naxçıvanda, daha sonra isə Gəncədə tətbiq olunub. İstehlakçılar kartlarını müəyyən məbləğdə ödəməklə istədikləri miqdarda təbii qazdan istifadə edə bilər. Bu sayğaclar təbii qaza görə problemsiz ödənişi təmin edir. Hazırda bu iş paytaxtda və regionlarda davam etdirilir. Bakının Xəzər, Nəsimi, Suraxanı rayonlarında, Sumqayıt şəhərində yeni sayğaclar quraşdırılır. Ümumiyyətlə, 2012-ci ilin sonunadək Bakı və Bakı ətrafı kəndlərinin bütünlüklə smart-kart tipli sayğaclarla təchiz edilməsi nəzərdə tutulmasına baxmayaraq, bu proses hələ də başa çatmayıb. | Smart-kart tipli sayğaclarının istifadə qaydaları ilə bağlı əhaliyə dolğun məlumat verilmir. Abonentlərin müəyyən hissəsi smart-kartları harada və necə doldurmalı, sayğaca necə yükləməli olduqları barədə məlumatsızdır. Sayğacın pasportunda bütün bunlar yazılsa da, təchizatçının borcudur ki, bütün məlumatları abonentə izah etsin.<br><br>Smart-kart tipli sayğacların düzgün tətbiqi ilk növbədə paylayıcının ödəniş faizi ilə əlaqədar çoxillik problemini həll edir. Bu nöqteyi nəzərdən "Azəriqaz" İB tərəfindən sayğac dəyişmə prosesinin ləngidilməsi səbəbləri anlaşılmazdır. Bu sayğacları quraşdırmadan öncə, 2009-cu ildə debitor qaz borclarının silinməsini nəzərdə tutan Prezident fərmanı ilə əlaqədar əhali ilə üzləşmə aparılmalı idi. İki tərəfin iştirakı |

| | |
|---|---|
| "Azəriqaz" İB-nin rəsmiləri yeni sayğacların heç bir problem yaratmadığını israr etsələr də, onlar əhali tərəfindən heç də birmənalı qarşılanmır. Rəyi öyrənilən vətəndaşların müəyyən qisminin sözlərinə görə, quraşdırılan smart-kart tipli sayğaclar əvvəlki sayğaclardan 15-20 faiz çox ödəniş yazır, digər abonentlərə isə həmin sayğaclardan istifadə qaydaları haqqında heç bir məlumat verilməyib, bu da onların haqlı narazılığına səbəb olur. | ilə qarşılıqlı akt yazılmalı, borcun silinməsi orada öz əksini tapmalı idi. Çox təəssüf ki, belə aktlar tərtib olunmur, mübahisəli məsələlər hələ də qalır. |
| Hazırda Bakıda 12 qaz qəza xidməti fəaliyyət göstərir. Təbii qazdan istifadə zamanı yarana biləcək arzuolunmaz hadisələr barədə məlumatların qəbulu **"104 – Qaynar xətti"** tərəfindən həyata keçirilir.<br>"Azəriqaz" İB-də hesab edirlər ki, iki ciddi problem var ki, bunlar qaz qəza xidmətlərinin səmərəli fəaliyyətinə mane olur. Bunlardan biri şəhərdəki avtomobil tıxacları, ikincisi isə vətəndaşların təhlükəsizlik qaydalarına əməl etməməsidir. Qaz qəza xidmətləri də təcili tibbi yardım stansiyaları kimi işləyir. Necə ki, avtomobil tıxacları həkimin çağırış yerinə çatmasını əngəlləyir, qaz qəza xidməti də elədir. Ona görə də bəzi adamlar qəza xidməti əməkdaşlarını hadisə yerinə vaxtında çatmamaqda günahlandırır. | Son illər Bakıda və bölgələrdə qaz sızması nəticəsində tez-tez baş verən partlayış və yanğınlar onu göstərir ki, qaz qəza xidməti hələ də çağırışa vaxtında gəlmir, hadisəyə operativ müdaxilə edə bilmir. Qaz qəza xidmətinin əməkdaşları hadisə yerinə vaxtında gəlsələr, bir çox hallarda partlayışın qarşısını almaq mümkün olar. Qəza xidmətinin hadisə yerinə gəlməsi bəzi hallarda təxminən 1 saat çəkir. Bəzi ekspertlərin fikrincə, qaz qəza xidmətinin məxsusi texniki bazası yoxdur, mövcüd texniki baza müasir tələblərə cavab vermir, hətta xidmət əməkdaşlarının hadisə yerinə göndərilməsi üçün minik avtomobilləri, texniki qurğular və ehtiyat hissələri də çatışmır. Mövcud avadanlıqlar, o cümlədən qəza xidməti avtomobilləri isə sovet dövründən qalmadır. Avtomobil tıxaclarını bəhanə etmək yersizdir, çünki bu problemin də həlli yolları mövcuddur, məsələn qaz qəza xidməti əməkdaşlarını daha ensiz, kiçik həcmli avtonəqliyyat və yaxud motonəqliyyat vasitələrinə keçirməklə (FHN bu təcrübədən faydalanıb) hadisə yerinə daha operativ (10-15 dəqiqəyə kimi) müdaxilə etmək mümkündür. |
| Borcun hesabatı, sayğacın ekspertizası və ödənişlə əlaqədər olan sənədləşmədə şəffaflığın olmaması | Abonentlərə borcun hesabatı ilə əlaqədar sənədlər natamam şəkildə verilir, yəni sənədləşmə borc və aparılmış ödənişlərlə əlaqədar məlumatları qismən əhatə edir, hər hansı bir dövrlə (yarımillik) məhdudlaşır. Sayğacın ekspertizası ilə əlaqədar aktlar təqdim olunmur.<br><br>"İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanunun 13-cü maddəsinin 1-ci hissəsində göstərilmişdir ki, satıcı (icraçı) istehlakçını maraqlandıran malın (işin, xidmətin) qiyməti, istehlak xassələri, əldə edilməsi şərtləri, təminat öhdəlikləri və iddiaların irəli sürülməsi, malın işlədilməsi, saxlanılması və təhlükəsiz istifadəsi üsulları və qaydaları barəsində istehlakçıya zəruri və düzgün məlumat verməlidir. Beləliklə, qanunun bu tələbi pozularaq təchizatçının istehlakçıya borcu və istehlakçının aparmış olduğu ödənişlər barədə dolğun məlumat verilmir. Yəni istehlakçıda özünün kredit tarixi barədə təfsilatı ilə məlumatı olmur. Belə vəziyyət əsas borcun əlavə ödənişlə əlaqədər sənədləşməsində şəffaflığın olmamasına səbəb olur. |
| Qaz təchizatı idarələri tərəfindən xidmətin təhlükəsizliyinin təmin olunmaması | Qaz təchizatı sahəsində yaranan fasilələr istehlakçılar üçün birbaşa təhlükə yaradır. Qazın fasiləsiz təchizatı təmin olunmur. Həmçinin, qaz təchizatı təzyiq sıçrayışları ilə müşahidə olunur. Bu iki amil qaz təchizatının təhlükəsizliyinə mənfi təsir göstərir. |
| Borc bildirişlərinin hər ay təqdim edilməməsi | Qaydaların 2 №-li Əlavəsinin 2.1.7-ci maddəsinə əsasən, İstehlakçıya verdiyi qazın dəyərini yalnız sayğacın göstəricilərinə əsasən tam hesablamaq və hər ay İstehlakçıya hesab təqdim etmək (göndərmək) Paylayıcının vəzifəsidir.<br>Həmçinin, Qaydaların 5.2-ci maddəsinə əsasən, Qaz |

| | |
|---|---|
| | paylayıcısı istehlakçıya verdiyi qazın dəyərini yalnız qaz sayğacının göstəricilərinə əsasən tam hesablamalıdır və hər ay istehlakçıya hesab təqdim etməlidir (göndərməlidir). Göründüyü kimi, Qaydaların bu müddəaları qaz nəzarətçiləri tərəfindən kobud şəkildə pozulur.<br><br>Qaz nəzarətçiləri müvafiq ölçü cihazları ilə təchiz olunmur, onlar sayğacın göstəricilərini dəftərə yazıb aparıb verirlər Kommersiya Şöbəsinə, orada həmin göstəricilər kompütere işlənilir, sonra borc bildirişləri çap olunur və nəzarətçilər onları evlərə paylayırlar. İşin bu cür təşkili müasir standartlara cavab vermir, bu səbəbdən bildirişlər hər ay təqdim olunmur. Bu problem şəhərin mərkəzində qismən aradan qaldırılsa da, mərkəzdən kənarda hələ də mövcuddur. |
| Sorğulara (ərizə və şikayətlərə ) ya cavab verilməməsi, ya da natamam cavab verilməsi | "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Qanununun 1-ci maddəsinə əsasən, hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir.<br><br>Bundan başqa, həmin qanunun 7-ci maddəsinə əsasən, müraciətdə göstərilən məsələyə baxıldıqda və bu barədə vətəndaşa əsaslandırılmış cavab verildikdə müraciət baxılmış hesab olunur. Yəni vətəndaşa əsaslandırılmamış, natamam cavab verildikdə müraciət baxılmış hesab oluna bilməz. Göründüyü ki, burada "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Qanununun 1 və 7-ci maddələrinin tələbləri kobud şəkildə pozulur. |
| İstehlakçılardan enerji haqqının mənzillərdə yığılması hallarının mövcudluğu | Qaydaların 5.3-cü maddəsinə əsasən, istifadə olunan qazın dəyəri yalnız bank və ya poçt şöbələri vasitəsilə ödənilir. Qaydaların bu tələbi də kobud şəkildə pozulur.<br><br>Belə neqativ hallar müəyyən qədər azalsa da, hələ mövcuddur. Bəzi hallarda bu məsələyə istehlakçıların özü laqeyd münasibət bəsləyir, bundan başqa, nəzarətçiləri çoxdan tanıdıqlarına görə onlara etibar edirlər ki, bu da enerji haqqlarının yerində bilavasitə nəzarətçiyə ödənilməsinə yol açır. |
| Qaz təchizatçısı istehlakçını sayğacla ödənişli təmin edir | Qaydaların 4.2-ci maddəsinə görə, qaz sayğacı ilə təchiz edilmə, onun quraşdırılması və dəyişdirilməsi fiziki şəxs olan istehlakçıya münasibətdə qaz paylayıcısı hesabına həyata keçirilir. Lakin Qaydaların bu tələbinə məhəl qoyulmur, sayğac quraşdırılarkən əhalidən bəzi hallarda pul tələb edilir. |
| Sayğac göstəricilətinin kompüter qeydiyyatına alınarkən faktik göstəricilərdən artıq şəkildə qeydə alınması | Qaydaların 2 №-li Əlavəsinin 3.3-cü maddəsinə əsasən, Paylayıcı İstehlakçıya verdiyi qazın dəyərini yalnız sayğacın göstəricilərinə əsasən tam hesablamalıdır. Bu cür hallar baş verdikdə 2 №-li Əlavənin 3.3-cü maddənin tələbləri kobud şəkildə pozulur. |
| Sayğac ekspertizası ilə əlaqədar problemlər | Sayğacların ekspertizası "Azəriqaz" İB-nin tabeliyində olan laboratoriya tərəfindən keçirilir ki, bu da ekspertizanın obyektiv keçirilməsini böyük şübhə altına alır. |
| Mənzillər üzrə qaz sayğaclarına müdaxilələrə görə təchizatçının vəzifəli şəxsləri tərəfindən məişət abonentlərinin günahlandırılması, hətta sayğaca həmin əməkdaşlar tərəfindən qərəzli müdaxilə və həqiqətə uyğun olmayan qusur aktların qərəzli tərtibatı | Qaydaların 4.8-ci maddəsinə görə, fiziki şəxs olan istehlakçıların qaz sayğaclarının işlək vəziyyətdə saxlanılmasına görə cavabdehliyi qaz paylayıcısı daşıyır. Buna baxmayaraq, bəzi nəzarətçilər bu cür sayğaclara edilmiş müdaxilələrdə belə hallarda heç bir məsuliyyət daşımayan məişət abonentlərini qərəzli günahlandırır və əsassız olaraq müvafiq aktlar tərtib edirlər. |

| | |
|---|---|
| Bilavasitə istehlakçılarla təmasda olan nəzarətçi mühəndislərin öz vəzifə səlahiyyətlərindən sui istifadə etmə halları. | Nəzarətçilərin vəzifəsindən sui-istifadə etmə halları müxtəlif şəkildə baş verir. Nəzarətçilər zaman-zaman ifşa olunub ya işdən kənarlaşdırılır, ya da cinayət məsuliyyətinə cəlb olunmaları üçün materiallar prokurorluq orqanlarına göndərilir. |
| Məhkəmə qətnamələrinin icra edilməməsi | “Məhkəmələr və hakimlər haqqında” Qanunun 5-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qanuni qüvvəyə minmiş məhkəmələrin qərarları Azərbaycan Respublikası ərazisində bütün fiziki və hüquqi şəxslər tərəfindən mütləq, vaxtında və dəqiq icra olunmalıdır. Qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının icra edilməməsi Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur. Göründüyü ki, burada “Məhkəmələr və hakimlər haqqında” Qanununun 5-ci maddəsinin tələbləri kobud şəkildə pozulur. |
| Təchizatçı tərəfindən müqavilə şərtlərinin pozulması | |

**Tövsiyə olunur ki,**

1. “Azəriqaz” İB Smart-kart tipli sayğacların quraşdırılmasını sürətləndirsin və bu zaman əhalinin maarifləndirilməsi məsələsinə xüsusi diqqət yetirsin.
2. Tövsiyə olunur ki, “Azəriqaz” İB-nin nəzdində fəaliyyət göstərər Qaz qəza xidmətlərinin fəaliyyəti müasir standartlara cavab verəcək şəkildə yenidən təşkil olunsun, maddi-texniki təchizatı yaxşılaşdırılsın,
3. Tövsiyə olunur ki, qaz təchizatı sahəsində göstərilən xidmətin keyfiyyət və təhlükəsizlik səviyyəsi artırılsın, bütün təhlükəsizlik tədbirləri “Azəriqaz” İB tərəfindən həyata keçirilsin,
4. Tövsiyə olunur ki, qaz təchizatı işçilərinin Etik Davranış Kodeksi qəbul edilsin,
5. Tövsiyə olunur ki, “Azəriqaz” İB-nin əhali qrupuna aid istehlakçılara göstərilən xidmətlər sahəsində inhisarına son qoyulsun, bu sahədə yeni qaz təchizatı müəssisələri (iki-üç) yaradılsın ki, bu sahədə sağlam rəqabət olsun və bu da son nəticədə əhaliyə göstərilən xidmətin keyfiyyətinə müsbət təsir etsin.

**II. 2. İstehlakçılar tərəfindən yol verilən pozuntular**

| Mövcud vəziyyət | Analiz |
|---|---|
| Müxtəlif hüquqi və fiziki şəxslər tərəfindən qazdan qanunsuz istifadə və talama halları:<br>➢ sayğaclara müdaxilə,<br>➢ nəzarət-ölçü cihazlarından kənar istifadə etmək yolu ilə | ➢ Çoxillik neqativ təcrübəyə əsaslanaraq demək olar ki, əksər hallarda enerji oğurluğu istehlakçı və nəzarətçinin birgə “əməkdaşlığı” nəticəsində baş verir.<br>➢ Əvvəlki dövrdə qüvvədə olan qanunvericilik qeyd edilən hüquqpozmaların törədilməsinə görə yalnız inzibati məsuliyyət müəyyən etməklə, bu hüquqpozmaların ictimai təhlükəliliyinə cavab verən repressiv mexanizmi nəzərdə tutmurdu. Eyni zamanda, bu inzibati xəta növünə görə inzibati icraata başlamalı olan orqanın səlahiyyətlərinin qeyri-müəyyən olaraq qalması, enerjidən qanunsuz istifadə halları ilə mübarizəni səmərəsiz edirdi.<br>➢ Qeyd edilən hallar xeyli miqdarda təbii qazın, elektrik və ya istilik enerjisinin talanması əməllərinin qanunvericiliyimizdə cinayət əməli kimi təsbit edilməsini, bu enerji növlərinin az miqdarda talanmasına görə isə inzibati məsuliyyətin sərtləşdirilməsini zəruri etmişdir.<br>Beləliklə, beynəlxalq təcrübə də nəzərə alınmaqla təbii qazın, elektrik enerjisinin talanması əməlini kriminallaşdırmaq, qeyd edilən enerji növlərinin az miqdarda talanmasına görə inzibati məsuliyyəti sərtləşdirilmək məqsədilə “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında” 19 dekabr 2006-cı il tarixli Azərbaycan Respublikası Qanunu (daha sonra Qanun) qəbul edilmişdir. |

| | |
|---|---|
| | Qanunla Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin mülkiyyət əleyhinə olan cinayətlər fəslinə yeni – **“189-1 – Təbii qazın, elektrik və ya istilik enerjisinin talanması”** maddəsi əlavə edilməklə cinayət qanunvericiliyimizdə bir sıra əməllər cinayət kimi təsbit edilmişdir.<br><br>Həmin cinayətlərin obyekti xüsusi icazə əsasında əhalinin və digər istehlakçıların təbii qaz, elektrik və ya istilik enerjisi ilə təchizatına təminat verən hüquqi şəxslərlə müxtəlif istehlakçılar arasında verilmiş təbii qaz, elektrik və ya istilik enerjisinə görə yaranan və qanunla qorunan mülkiyyət münasibətləridir.<br><br>CM-nin 189-1.1-ci maddəsilə nəzərdə tutulmuş cinayətin obyektiv tərəfi təbii qaz, elektrik və ya istilik şəbəkələrinə qanunsuz qoşulmaqla bu enerji resurslarının xeyli miqdarda ziyan vurmaqla talanmasından ibarətdir.<br><br>Enerjidən qanunsuz istifadə etmə əməlləri o halda cinayət məsuliyyəti yaradır ki, belə əməllər özündə talamanın əlamətlərini əks etdirsin. Təcrübədə bu əsasən verilmiş enerjinin nəzarət ölçü cihazlarına, sayğaclara müdaxilə etmək yolu ilə onların göstəricilərinin süni şəkildə azaldılmaqla təhrif edilməsi və ya ümumiyyətlə, nəzarət ölçü cihazları, sayğaclar olmadan, gizli yolla, müvafiq qurumların nəzarətindən kənar çəkilmiş xəttlər və naqillər vasitəsilə enerji resurslarından istifadə yolu ilə törədilir.<br>Eyni zamanda, şərh edilən maddə ilə cinayət məsuliyyətinin yaranması üçün törədilən əməllə enerji resursları ilə təchizat subyektlərinə xeyli miqdarda ziyan vurulması zəruridir. Xeyli miqdarda ziyanın anlayışı isə CM-nin 177-ci maddəsinin “Qeyd” hissəsində verilmişdir.[1] CM-nin 189-1.2-ci maddəsi eyni əməllərin külli miqdarda ziyan vurmaqla törədilməsini tövsifedici əlamət kimi nəzərdə tutur.<br><br>Dövlətimizin müstəqillik əldə etdiyi ilk illərdə keçid dövrünün problemləri, işsizlik, sosial yükün və yoxsulluğun artması onunla nəticələnmişdir ki, həmin vaxtlardan başlayaraq təbii qaz, elektrik enerjisinin talanması halları əhali arasında geniş vüsət almışdır. Bu səbəbdən, həmçinin cinayət qanunvericiliyimizin humanizm prinsiplərinə əsaslanaraq, qanunverici maddənin “Qeyd” hissəsində CM-nin 189-1.3, 189-1.4-cü maddələri ilə nəzərdə tutulmuş əməlləri ilk dəfə törətmiş şəxsin cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad olunması barədə müddəanı nəzərdə tutmuşdur. Bu müddəa, həmçinin stimullaşdırıcı xarakter daşımaqla, hüquqpozucularını vurduqları ziyanı tamamilə ödəməyə həvəsləndirir.<br><br>CM-nin 189-1.3, 189-1.4-cü maddələri təbii qaz, elektrik və ya istilik enerjisi təchizatı müəssisələrinin vəzifəli şəxsi olmayan səlahiyyətli nümayəndəsinin CM-nin 189-1.1 və 189-1.2-ci maddələrində nəzərdə tutulmuş əməllərin qarşısının almaması ilə bağlı cinayət əməllərini nəzərdə |

[1] CM-nin 177-187, 189 və 189-1-ci maddələrində “xeyli miqdar” dedikdə, min manatdan yeddi min manatadək olan məbləğ, “külli miqdar” dedikdə isə yeddi min manatdan artıq olan məbləq başa düşülür.

tutur. Qeyd edilən cinayətlərin subyekti və nəticələri eyni olsa da, həmin cinayət tərkibləri təqsirin formasına görə fərqlənir.

Belə ki, CM-nin 189-1.3-cü maddəsilə nəzərdə tutulmuş cinayət təbii qaz, elektrik və ya istilik enerjisi təchizatı müəssisələrinin vəzifəli şəxsi olmayan səlahiyyətli nümayəndəsinin işə vicdansız və ya laqeyd münasibəti nəticəsində, yəni ehtiyatsızlıqdan törədilir.

CM-nin 189-1.3-cü maddəsilə nəzərdə tutulmuş cinayət isə qeyd edilən şəxslər tərəfindən xidməti mövqeyindən sui-istifadə etməklə tamah və ya sair şəxsi marağı üzündən, yəni qəsdən törədilir. Bu zaman təqsirkar qulluq səlahiyyətlərindən qulluq mövqeyinə zidd olaraq istifadə etdiyini dərk edir, bunun enerji təchizatı müəssisəsinin mənafelərinə mühüm zərər vurma ilə ifadə olunan nəticələrini (enerji resurslarının talanmasını) qabaqcadan görür, bu nəticələrin baş verməsini arzu edir. Bu cinayətin tərkibinin daha bir zəruri elementi həmin cinayətin motividir. Şərh edilən maddədə bu tamah və ya sair şəxsi maraq kimi müəyyən edilmişdir.

CM-nin 189-1.1-ci maddəsilə nəzərdə tutulmuş cinayətin subyekti ümumidir. Bu cinayətin subyekti qismində enerji resurslarının təchizatı müəssisəsilə müqavilə bağlanıb-bağlanılmamasından asılı olmayaraq bütün şəxslər ola bilər.
CM-nin 189-1.3, 189-1.4-cü maddələrilə nəzərdə tutulmuş cinayətlərin subyekti xüsusidir. Bu cinayətlərin subyekti qismində əmək vəzifələrinə enerji, təbii qaz xəttlərinə, naqillərinə qanunsuz müdaxilələri, qoşulmaları aşkar etmək, qarşısını almaq vəzifələri daxil olduğu təbii qaz, elektrik və ya istilik enerjisi təchizatı müəssisəsinin vəzifəli şəxs olmayan səlahiyyətli nümayəndələri ola bilər.

Həmin şəxslərin sırasına rayon paylayıcı elektrik şəbəkələrinin, qaz istismarı idarələrinin müfəttişlərini, sahə ustalarını, elektrik montyorlarını və digər işçiləri aid etmək olar. Bu və ya digər işçinin şərh edilən cinayətin subyektləri dairəsinə aid olub-olmamasını müəyyən etmək üçün ilk növbədə paylayıcı elektrik şəbəkələrində, qaz istismarı idarələrində qüvvədə olan müvafiq vəzifə təlimatlarında həmin şəxslərin əmək vəzifələrinə enerji, təbii qaz xəttlərinə, naqillərinə qanunsuz müdaxilələri, qoşulmaları aşkar etmək, qarşısını almaq vəzifəsinin daxil edilib-edilmədiyi yoxlanılmalıdır.Qeyd edilən müəssisələrin vəzifəli şəxsləri törətdikləri eyni əməllərə görə Azərbaycan Respublikası CM-nin 33-cü fəslində nəzərdə tutulmuş müvafiq maddələrlə məsuliyyət daşıyırlar.19 dekabr 2006-cı il tarixli Qanunla Azərbaycan Respublikası CM-nin 189-1-ci maddəsilə nəzərdə tutulmuş cinayətlərin istintaq aidiyyəti prokurorluq orqanlarına aid edilmişdir.

Qeyd edildiyi kimi, Qanunla həmçinin təbii qazın, elektrik və ya istilik enerjisinin az miqdarda talanması və ya onlardan məişətdə istifadə qaydalarının pozulmasına görə inzibati məsuliyyəti sərtləşdirilmək məqsədilə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 101.2 və 118-

<table>
<tr><td></td><td>ci maddələrinə müvafiq əlavə və dəyişikliklər edilmişdir.</td></tr>
<tr><td colspan="2">Tövsiyə olunur ki,<br>Müxtəlif hüquqi və fiziki şəxslər tərəfindən təbii qazdan qanunsuz istifadə və talama hallarına qarşı mübarizə sərtləşdirilməlidir.</td></tr>
<tr><td colspan="2">III. QABAQLAYICI TƏDBİRLƏR</td></tr>
<tr><td>Mövcud vəziyyət</td><td>Analiz</td></tr>
<tr><td>Günahkar vəzifəli şəxslərin intizam məsuliyyətinə cəlb olunmaması</td><td>“Azəriqaz” İB-də neqativ hallardan, konkret vəzifəli şəxslərin qeyri-qanuni hərəkətlərindən şikayət ediləcək “Qaynar xətt” fəaliyyət göstərmir.</td></tr>
<tr><td colspan="2">Tövsiyə olunur ki,<br>1. “Tövsiyə olunur ki, “Azəriqaz” İB-də əhalinin şikayətlərinə operativ baxılmasını təmin edəcək yeni məzmunda “Qaynar xətt” təşkil edilsin.<br>2. Ora daxil olmuş şikayətlərin sayı, xarakteri, görülmüş tədbirlər, o cümlədən günahkar vəzifəli şəxslərin intizam məsuliyyətinə cəlb olunması, hansı inzibati tənbeh tədbirlərinə məruz qalması haqqında ictimaiyyətin məlumatlandırılması məqsədəmüvafiqdir.</td></tr>
<tr><td colspan="2">IV. İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR</td></tr>
<tr><td>Mövcud vəziyyət</td><td>Analiz</td></tr>
<tr><td>Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin tabeliyinə verilməmişdən əvvəl “Azəriqaz” Səhmdar Cəmiyyətinin mətbuat xidməti KİV nümayəndələri arasında aparılmış rəy sorğusunun nəticələrinə görə ən passiv mətbuat xidmətlərinin sırasında yer almışdır.<br><br>2009-cu ildə Dövlət Neft Şirkətinin tabeliyinə veriləndən sonra “Azəriqaz” İstehsalat Birliyi tərəfindən media nümayəndələri ilə əlaqələrin inkişaf etdirilməsi istiqamətində müvafiq addımlar atılmışdır.<br><br>Belə ki, “Azəriqaz” İstehsalat Birliyində mütəmadi şəkildə (ayda 1-2 dəfədən az olmayaraq) “Açıq mətbuat saatı” keçirilir. “Açıq mətbuat saatı”nın tarixi və vaxtı barədə qabaqcadan ARDNŞ-in www.socar.az internet səhifəsində kütləvi informasiya vasitələri nümayəndələrinə xəbər verilir. Göstərilən müddətdə KİV nümayəndələri (+994012) 490-54-33 və (+994012) 490-54-24 nömrəli telefonlarla əlaqə saxlayaraq müxtəlif mövzularla əlaqədar suallarına cavab ala bilərlər. “Açıq mətbuat saatı”nda istehlakçıların təbii qazla təminatı, qarşıya çıxan problemlər və onların aradan qaldırılması, əhalini narahat edəcək digər məsələlərlə bağlı media nümayəndələrinin sualları cavablandırılır.</td><td>ARDNŞ-in www.socar.az internet səhifəsində “Azəriqaz” İstehsalat Birliyinə həsr olunmuş ayrıca bölmə yoxdur. Sayt qaz təchizatı sahəsindən ətraflı məlumat vermir, daha çox ya müxtəlif səbəblərdən qaz təchizatının dayandırılması barədə xəbərdarlıq edir, ya da hansısa yaşayış məntəqəsinin qaz paylayıcı şəbəkəsinə qoşulmasından bəhs edir ki, bu da çox məhdud xarakterli məlumat təşkil edir.<br><br>ARDNŞ-nin internet səhifəsində media nümayəndələrinə yardımçı ola biləcək xususi “Mətbuat guşəsi” bölməsi yaradılmışdır. Lakin “Mətbuat guşəsi” bölməsindəki yenilikləri daim elektron ünvanına almaq üçün media nümayəndələrindən qeydiyyatdan keçmək xahiş olunur.<br>“Açıq mətbuat saatı”nda media nümayəndələri tərəfindən verilən suallar və onların cavabları haqqında məlumat yerləşdirilmir.</td></tr>
<tr><td colspan="2">Tövsiyə olunur ki,<br>1. Tövsiyə olunur ki, www.socar.az internet səhifəsində “Azəriqaz” İstehsalat Birliyinə həsr olunmuş ayrıca bölmə yaradılsın.<br>2. Tövsiyə olunur ki, “Açıq mətbuat saatı”nda media nümayəndələri tərəfindən verilən suallar və onların cavabları haqqında www.socar.az internet səhifəsində məlumat yerləşdirilsin.<br>3. Tövsiyə olunur ki, “Azəriqaz” İstehsalat Birliyinin fəaliyyəti ilə bağlı mütəmadi olaraq (ildə bir dəfədən az olmamaq şərti ilə) rəy sorğuları keçirilsin, rəy sorğusunun keçirilməsinə ekspert-mütəxəssislər, KİV, QHT və vətəndaş cəmiyyəti institutları nümayəndələri cəlb edilsinlər.<br>4. Radionun FM dalğalarında kommunal xidmətləri (o cümlədən, qaz təchizatı) sahəsində mövcud olan vəziyyətlə əlaqədar əhali arasında ekspress rəy sorğuları keçirəcək, əhalinin üzləşdiyi kommunal problemlərdən bəhs edəcək verilişin açılması məqsədəmüvafiq hesab olunur.</td></tr>
</table>